

HƏMZƏ ƏVƏZOĞLU

## İRFANİ

Kimsə məni atsa da, O atmadı,
Kimsə məni satsa da, O satmadı,
Cümlə-cahan yatsa da, O yatmadı
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

Şərq ilə qərb Onun zəmanətində,
Yaxşı-xeyir Onun əmanətində,
Din və iman Onun cəmaətində,
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

Mənim Ona çoxlu məhəbbətim var,
Heç kimə bəslənməyən hörmətim var,
Bu cürnə irfani təbiətim var,
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

Dünayaların sirrini biləndir O,
Bizləri öldürüb diriləndir O,
Yatmayan uşağı kiridəndir O,
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

Dərinliyin saf bulağı, dənizi,
İnsanların, mələklərin əzizi,
Zatı təmiz, təmizlərin təmizi,
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

Hamı Onun qarşısına getməli,
Səcdə qılıb ibadətin etməli,
Əllərini bu dünyadan çəkməli,
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

O atadan, anadan da əzizdir,
Bütün varlıq Ona kölə-kənizdir,
Özü gözəl, görənməyən bənizdir,
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

O hər şeyin, hər kəsin fövqündədir,
Cənnət-cəhənnəm Onun şövqündədir,
Şəfaəti qiyamət günündədir,
Yuxulayıb mürgü vurub yatmır O,
Gahi çıxıb günəş kimi batmır O.

## QƏZƏL

Gətirib gül çöhrələrin güssə-qəmi zarə məni,
Bağlayıb bəstənigarın zili-bəmi yarə məni.

Yar əlindən bezaram, ahü-fəğan eyləmişəm,
Bənd edib musiqinin muğ həmdəmi tarə məni.

Elə çətin durumd[illegible]ın, özümü də heç bilməmişəm,
Nə vaxtdandır batırıb qış dönəmi qarə məni.

Yıxılmışam tirtap olub yerimdəcə uzanmışam,
Durğuza bilməyib imdad, kömək çəmi çarə məni.

Məkan edib yerimi ilan kimi qıvrılmışam,
Qonaq edib rəqib-əğyar zəhri-təmi-marə məni.

O qədər yorulmuşam, dönüb qəzəlxan olmuşam,
Çəkməyəcək ki, ustadim Həsən əmi "darə" məni.

Bülbül təkin cəh-cəh vurub gül həsrətində qalmışam,
Neyçün-neyçün tay etməyib tarla-zəmi xarə məni.

İşdən xaric bir vətəndaş - batan güntək saralmışam,
Allah yenə daxil edər şərqdən "həmikarə" məni.





## İRFANİ RİTMİK ŞEİR

All - göylərin qəndili, al - şəfəqin nurudur,
Gözəllikdən ah çəkib biz ona Allah dedik.

Allah "ol" dedi oldu, böyük patlayış oldu,
Partlayışın sonrası, kainatın bəlası,
Gözümüzün qarası ulduz közü qor oldu.
Qor alışıb yanmadı, özünü köz sanmadı,
İşindən usanmadı, Allahını danmadı,
Bərkiyərək qut oldu, Qorqud ata doğuldu.
Zövcəsi qabırğadan-ətdən, sümükdən, qandan.
Nəsillər aşdı-daşdı, şeytan əkildi qaçdı,
Şeytana aldanmayan doğulan insan oldu.
İndi yerdə gəzirik, keyf edib əylənirik,
Toy-bayram günlərində şeirlər söləyirik,
Aldığımız bu canı qoruyub bəsələyirik...
Qüssə-kədər dayandı, sevincimiz oyandı,
Yediyimiz təamlar canımıza nuş oldu.
Bizimdir bu yer üzü - Qorqud atanın gücü,
Dediyimizin düzü dünyaya bəyan oldu.
Dostlarımız da gəldi, məclisimiz düzəldi,
Əlli nəfər yüz əldi - hamı yedi tox oldu.

## GETDİLƏR

Neyçün məni yalqız qoyub getdillər,
Ürəyimi yaralayıb getdilər,
İndi bu cür münasibət dəbdədir,
Yaxşılığı unutdular, getdilər.

Onlar mənim doğma ailəmdilər,
İndi də bəs güya mənimlədilər,
Qurtaranda pul yanıma gəldilər,
Pulu alıb götürdülər getdilər.

Nə desələr mən onlara verərəm,
Axırıncı pullarımdan keçərəm,
İstəsələr canımı da verərəm,
Bir az durub doluxsunub getdilər.

Baxırsan ki, ehtiyac içindəyik,
Necə varsa əzəldən də heyləyik,
Hərdən bir yerdə oturub yeyərik,
Eyb eləməz yeyib-içib getdilər.

Əslində mən onları qınamıram,
Səhv etsələr üzlərin danlamıram,
Bəlkə mən də çox şeyi anlamıram,
Yəqin bunu dərk eləyib getdilər.

Halal işlə-güclə məşğul oluram,
Bu canımı fəda edir, yoruram,
Balaları çağırıram, soruram,
Qulaqların şəklədilər getdilər.

Ailəmin halına qalmalıyam,
Meylimi xoş gunlərə salmalıyam,
Daim-daim qələbə çalmalıyam,
Qalib olub, zəfər çalıb getdilər.

Məcazidir bəzi mənim sözlərim,
Təkcə özüməm öz başım, öz əlim,
Şeir yazıb aləmə söyləyəlim,
Dinlədilər, razı qalıb getdilər.

## QARIYAN QIZ

Millətin ey gözəl qarıyan qızı,
Bəxtini göylərə sarıyan qızı.
Şeir bəstələmək gəlir əlimdən,
Ürəyini qısma sən də bu gündən.
Bir şeir yazaram bəxtin açılar,
Aləmə işıq, nur, şölə saçılar...
İnşallah, toyuna məni də çağır,
Bu təklif gəlməsin sənə çox ağır,
Xoş günlərin sənin irəlidədir,
Şeir, musiqi, nəğmə bu sinəmdədir,
Gizli, müəmmalı heç nə qalmasın,
Könüllər ümidin yerə salmasın,
Çətin günlərin də arxada qalsın,
Bərəkət, ruzin də daim çoxalsın.
Nə deyim mən sənə uğurlar olsun,
Bütün xalqın [illegible] olsun.
Həmzə Əvəzoğlu qolların açsın.
Qəşəng bir körpə də qucağa qaçsın.

## ƏDƏDLƏR

1 - [Bir] Allahın təkliyini bidirir.
2 - [iki] yaranmışlara işarədir.
3 - [üç] nəfərin üçüncüsü bəllidir.
4 - [dörd] cəhəti istiqamətləndirir.
5 - [beş]-dir aləm, Peyğəmbərin cəddidir.
6 - [altı] tərəf dünyanın sərhəddidir.
7 - [yeddi] sıra cənnətməkan səddidir.
8 - [səkkiz] güşə yurdumuzun rəmzidir.
9 - [doqquz] mükəmməlliyin ünvanıdır.
0 - [sıfır] andır, qiyamətin yanıdır.